

■ Könül Əliyeva-Cəfərova
*teatrşünas*

# Teatrşünaslıq elmi kibermәkanda

Bu gün bütün fəaliyyət sahələri kimi teatr və teatr tənqidini də informasiya-kommunikasiya texnologiyaları olmadan təsəvvür etmək qeyri-mümkündür. Teatr sənəti zamanın amansız ritmi qarşısında məhv olmamaq, gərəksizləşməmək üçün mütləq dövrün çağırışlarına həssas olmalı, praktiki işdə yeni texnologiyaları tətbiq etməyi öyrənməlidir. Bu, zamanın qaçılmaz tələbi kimi qarşıya çıxır.

İKT-nin inkişafı və cəmiyyət həyatına nüfuz etməsi bütün sahələr kimi teatrşünaslıq elminin də qarşısına yeni vəzifələr qoyur. Bu gün teatrşünaslıq elmi artıq istəsə də, istəməsə də İKT-nin nailiyyətlərindən istifadə edir, yaxud etmək məcburiyyətini hiss edir. Hətta belə bir faktı konstatasiya etmək olar ki, İKT müasir teatrşünaslıq elminin mahiyyətini və fəaliyyət mənzərəsini dəyişdirib. Belə ki, teatrşünaslıq elminin yeni təhlil üsulları, dil-ifadə vasitələri, fərqli iş mexanizmləri, texnologiyaları formalaşıb. Mövzunun son dərəcə geniş olduğunu nəzərə alaraq, bu tezisdə məsələnin yalnızca bir aspektini - sosial şəbəkələrin teatrşünaslıq elminə təsirini araşdıracağıq. Çünki danılmaz faktdır ki, son zamanlar sosial şəbəkələr həyatımızın ayrılmaz tərkib hissəsinə çevrilib. Ölkə əhalisinin, ən azı, yarısı müxtəlif sosial şəbəkə istifadəçiləridir. İnsanlar hər hansı məsələ, eləcə də mədəniyyət hadisələri haqqında istədiyi kimi fikir bildirmək, öz mülahizəsini bir anın içində minlərlə insanla - sosial şəbəkə istifadəçisi ilə bölüşmək imkanı qazanır. Bu isə, istər-istəməz teatr tənqidçisinə olan ehtiyacı azaldır. Günümüzün insanına hansısa tənqidçinin bu və ya digər tamaşa haqqında yazdığı ətraflı resenziyanı oxumaqdansa, özünün rəy bildirməsi, mülahizə yürütməsi daha maraqlı gəlir. Sosial şəbəkədə hamı "eşidilmək", fikrini bildirmək, bəyənilmək ("like" toplamaq) imkanı qazanır. Burada teatr haqqında elə də dərin bilgisi, peşəkar təhsili olmayan birinin peşəkar teatrşünasdan daha çox rəğbət (oxu: layk) toplamaq imkanı var. Belə olan halda teatr tənqidinin əhəmiyyəti azalmaya bilməz.

Rusiyalı teatrşünas Pavel Rudnevin təbirincə desək, "kommentlər epoxası"nda teatr tənqidi fərqli səciyyələr kəsb edir. Artıq nəinki ali təhsili və diplomu olan teatrşünas, eləcə də hər bir bloqqer, sosial şəbəkə istifadəçisi olan hər kəs tənqidçi qismində çıxış edə, hər hansı bloqda, sosial şəbəkədə istənilən teatr hadisəsini təhlil edə, qiymətləndirə, tamaşa haqqında rəy söyləyə bilər.

Son illərin teatr prosesinin əsas səciyyəsi qlobal internetləşmə ilə bağlıdır. İnternet məkanının anonimlik imkanı və istifadəçinin irəli sürdüyü fikrə görə heç bir məsuliyyət daşımaması bu prosesə xaotiklik gətirir. Bəlkə də bunun nətcisədir ki, sosial şəbəklərdə sıx-sıx qeyri-korrekt mülahizələrə, kobud yanaşmalara, hətta bəzən qeyri-normativ leksika ilə ifadə olunan bayağı ittihamlara rast gəlmək olur. İnternetləşmənin, sosial şəbəkələrin cəmiyyət həyatına güclü nüfuzunu sırf neqativ aspektdən dəyərləndirməyə köklənən, az qala, "internet çıxdı, teatr öldü" fərziyyəsini irəli sürənlərdən fərqli olaraq, internetləşmənin müsbət və mənfi cəhətlərinin müəyyən balans təşkil etdiyini düşünürük. Məsələ burasındadır ki, zaman keçdikcə, dünyanın sosial-siyasi, iqtisadi mənzərəsi dəyişdikcə teatr sənəti, eləcə də teatrşünaslıq elmi dövrün tələblərinə həssas olmalı, özünü yeniləməyi bacarmalıdır. Teatrşünaslıq elmi cəmiyyət üçün, eləcə də teatrlar üçün maraqlı ola bilmək üçün mütləq dövrün bütün hadisə və yeniliklərinə cavab verməli, elmin və informasiya texnologiyalarının nailiyyətlərini dərindən mənimsəyərək tətbiq etməyi bacarmalıdır. Çağdaş dövrdə fəaliyyət göstərən teatrşünas yüksək nəzəri hazırlıq səviyyəsinə malik olmaqla yanaşı, İKT-nin nailiyyətlərindən də yararlanmağı bacarmalıdır. Kütləvi internetləşmənin nəticəsində yaranmış ilk baxışda neqativ situasiyadan belə səmərəli istifadə etmək və mövcud durumu teatr sənətinin, habelə teatrşünaslığın inkişafına yönəltmək mümkündür. Belə ki, müasir texnologiyalardan istifadə etməyi bacaran teatrşünas, əslində, teatr sənətinin təbliği, ictimai rəyin teatr üçün əlverişli məcraya yönəldilməsi üçün əvəzsiz imkanlar əldə edir. Livejournal, vkontakte, odnoklassniki, twitter, facebook, instagram, linkedin kimi sosial şəbəkələrdən, forumlardan, disputlardan istifadə etmək teatr haqqında fikirləri qısa zaman ərzində daha geniş auditoriyaya ötürmək imkanı verir. Sosial şəbəkələr teatr sosiologiyasının öyrənilməsi, tamaşaçı maraqlarının, istəklərinin, teatr tamaşalarının təsir gücünün monitorinqi üçün bu günə qədər mümkün olmayan geniş və əlverişli imkanlar yaradır.

Bu gün teatrşünaslığın qollarından biri olan teatr jurnalistikası (cari teatrşünaslıq) dar, spesifik sahə olmaqdan çıxıb və kütləvi oxucu auditoriyasına ünvanlanır. Əvvəllər xüsusi bir elm sahəsi hesab olunan teatr tənqidi artıq getdikcə jurnalistikayla eyniləşir. Teatr jurnalistikası akademik teatrşünaslığı üstələyir və daha əlçatan və daha mobil olduğu üçün nisbətən populyardır. Odur ki, teatrşünasların yeni fəaliyyət mexanizmlərini öyrənməsi və yalnız kağız daşıyıcılar - qəzet, jurnal, kitab kimi vasitələrlə kifayətlənməyərək, virtual məkanda da aktivlik nümayiş etdirməsi qaçılmaz hal alır. Təbii ki, söhbət nəzəriyyədən, akademik teatrşünaslıqdan getmir. Ənənəvi teatrşünaslıq həmişə olduğu kimi, yenə də mövcudluğuna davam edəcək. Ancaq teatr tənqidi inkişaf etmək üçün mütləq yeni media növləri ilə əməkdaşlıq formaları tapmalı və internet məkanına inteqrasiya olunmalıdır.